DÖVLƏT VERGİ XİDMƏTİ

# Bəzi vergi ödəyiciləri üzrə vergi borclarının ödənilməsi qaydası dəyişildirildi!

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, 01.01.2026-cı il tarixindən etibarən**

Vergi borclarının yaranma tarixi ardıcıllığı ilə ödənilməsi qaydası aşağıdakı şəxslərə şamil edilmir:

Avtomobil nəqliyyat vasitələri ilə sərnişin daşımaları həyata keçirən fiziki şəxslər;

“Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, MDSS və İTS haqqının ödənilməsi haqqında qəbz” ilə işçi cəlb etmədən aşağıdakı fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər:

- ❖ Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət;
- ❖ Fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla);
- ❖ Çəkməçi, pinəçi fəaliyyəti;
- ❖ Saatların, televizorların, soyuducuların və digər məişət cihazlarının təmiri;
- ❖ Fərdi yaşayış evlərində və mənzillərdə:

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

BAKI — 2026

- ev qulluqçusu,
- dayə:
- xəstələrə, qocalara və uşaqlara qulluq,
- fərdi sürücülük,
- ev təsərrüfatında təmizlik,
- bağban, aşbaz, gözətçi

❖ iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiantlar);
❖ Nəqqaşlıq emalatxanalarının fəaliyyəti;
❖ Fərdi qaydada bərbər fəaliyyəti;
❖ Fərdi qaydada dərzi fəaliyyəti;
❖ Fərdi baytarlıq xidməti praktikası.

**Nə dəyişdi?**
01.01.2026-cı il tarixindən etibarən: Avtomobil nəqliyyat vasitələri ilə sərnişin daşımaları həyata keçirən şəxslər və "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, MDSS və İTS haqqının ödənilməsi haqqında qəbz" ilə fəaliyyət göstərən fiziki şəxslər digər fəaliyyət növü ilə məşğul olduqda və həmin fəaliyyət üzrə vergi öhdəlikləri yarandıqda belə, "Fərqlənmə nişanı" və "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, MDSS və İTS haqqının ödənilməsi haqqında qəbz" almaq hüququnu itirmirlər.

**Vacib qeyd:**
Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edilmiş vergi borcları, hesablanmış faizlər, tətbiq edilmiş maliyyə sanksiyaları tam ödənildikdən sonra vergi ödəyiciləri "Fərqlənmə nişanı" və "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, MDSS və İTS haqqının ödənilməsi haqqında qəbz" ala bilərlər.